# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycanda dayanıqlı iqtisadi inkişafın təmin edilməsində fiskal və monetar siyasətin əlaqələndirilməsi mexanizminin qiymətləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Həsənov Rasim Tapdıq oğlu**

Qrantın məbləği: **40 000 manat**

Layihənin nömrəsi: **EİF-2011-1(3)- 82/78-M-53**

Müqavilənin imzalanma tarixi: **16 dekabr 2011-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **1 yanvar 2012-ci il – 1 yanvar 2013-cü il**

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | 1.Hazırlıq mərhələsində layihənin həyata keçirilməsi ilə əlaqədar təşkilati işlər həyata keçirilmiş, tədqiqatın planı tərtib edilmiş və icraçılar arasında bölüşdürülmüşdür;<br>2.Tədqiqat planına müvafiq olaraq kiçik açıq iqtisadiyyatda əsas iqtisadi parametrlərin formalaşmasının və onların qarşılıqlı əlaqələrinin, makroiqtisadi tarazlığın və iqtisadi artımın təmin olunmasının nəzəri məsələləri öyrənilmişdir;<br>3.Azərbaycanda makroiqtisadi tarazlıq səviyyəsi qiymətləndirilmiş və onu təmin edən şərtlər müəyyənləşdirilmişdir;<br>4.Azərbaycanda iqtisadi artımın keyfiyyət və kəmiyyət parametrləri araşdırılmışdır;<br>5.Azərbaycanda əsas iqtisadi parametrlər arasında qarşılıqlı əlaqələr müəyyənləşdirilmişdir;<br>6.Azərbaycanda büdcə kəsri və pul kütləsinin həcminin, vergilərin səviyyəsinin, faiz dərəcəsi, mübadilə məzənnəsi, xarici ticarət və xarici investisiyanın tənzimlənməsi imkanlarının qiymətləndirilməsi həyata keçirilmişdir;<br>7.Azərbaycanda əsas makroiqtisadi parametrlərin iqtisadi artım və makroiqtisadi tarazlığa təsirinə dair qiymətləndirmələr aparılmışdır; |

8.Azərbaycanda makroiqtisadi siyasətinin hazırlanmasında iqtisadi artım və makroiqtisadi tarazlıq arasında seçimın müəyyən edilməsi məsələləri araşdırılmışdır;

9.Azərbaycanda həyata keçirilən fiskal və monetar siyasətlərin əlaqələndirilməsi mexanizmi araşdırılmışdır.

10.Azərbaycanda həyata keçirilən fiskal və monetar siyasətlərin əlaqələndirilməsi əlaqələndirilməsi mexanizminin təkmilləşdirilməsinə dair təklif və tövsiyələrin hazırlanmışdır.

Tədqiqat işində iqtisadi-riyazi üsullar, elmi abstraksiya, sistemli yanaşma, analitik təhlil üsullarından istifadə edilmişdir.

Tədqiqat işində neoklassik və neokeynis yanaşmalar araşdırılmış, kapitalın mobilliyi halında kiçik açıq iqtisadiyyat üzrə Mandell-Fleminq modeli öyrənilmiş, kapitalın qeyri-mobil halı üçün kiçik iqtisadiyyatda monetar və fiskal siyasətin formalaşması xüsusiyyətləri araşdırılmış, Azərbaycanda əsas iqtisadi parametrlər arasında qarşılıqlı əlaqələr tədqiq edilmişdir. Aparılmış hesablamalar Milli Hesablar Sisteminin məlumatlarına əsaslanmış və kiçik açıq iqtisadiyyat modeli əsas götürülmüşdür. Həmçinin kiçik açıq iqtisadiyyatda fiskal və monetar siyasətin formalaşması qanunauyğunluqlarının, pula tələb və təklifi idarə edən amillər nəzərə alınaraq araşdırılmalar aparılmışdır. Xüsusilə, tədqiqat işində iqtisadi artım və inflyasiya arasında seçimlə bağlı fiskal siyasətlə monetar siyasətin əlaqələndirilməsi məsələlərinə dair yanaşmalar araşdırılmış və tədqiqat işində istifadə edilmişdir.

| | |
|---|---|
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *100%* |
| 3 | Hesabat dövründə alınmış elmi nəticələr (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |

Kiçik açıq iqtisadiyyatda əsas iqtisadi parametrlərin qarşılıqlı əlaqələrinin formalaşması xüsusiyyətləri müəyyən edilmiş, makroiqtisadi tarazlığın və iqtisadi artımın təmin olunmasının şərtləri və amilləri öyrənilmişdir. Xüsusilə, kiçik açıq iqtisadiyyatın fəaliyyət mexanizminin nəzəri məsələləri oyrənilmişdir.
Tədqiqat işində dövlət büdcəsinin gəlir və xərclərinin formalaşması mexanizmi, vergilərin və büdcə xərclərinin, həmçinin büdcə xərclərinin iqtisadi artıma və makroiqtisadi tarazlığa təsiri, monetar siyasətin formalaşması, onun reallaşdırılması alətləri, kiçik açıq iqtisadiyyatda monetar siyasətin iqtisadi artıma və makroiqtisadi tarazlığa təsirinin nəzəri məsələləri araşdırılmışdır.

Azərbaycanda makroiqtisadi siyasətin xüsusiyyətləri öyrənilmiş, iqtisadi artımın keyfiyyət və kəmiyyət parametrləri müəyyənləşdirilmiş, iqtisadi artımda ayrı-ayrı sahələrin rolu aşkar edilmiş, ölkədə əsas iqtisadi parametrlər arasında qarşılıqlı əlaqələr müəyyənləşdirilmişdir.
Son illərdə iqtisadi artımda əsasən neft və qaz sektorunda baş verən artım və neft gəlirlərinin xərclənməsi əsas rol oynamışdır. Ümumiyyətlə, 2006-2010-cu illərdə ÜDM-in yaranmasında xalis mənfəətin payı 70 faizdən çox olmuşdur ki, bu da əsasən neft-qaz hasilatı sahəsində yaranan renta ilə əlaqədar olmuşdur.
Büdcə gəlirlərinin əsas hissəsi neft gəlirləri hesabına formalaşmışdır. Belə hal qeyri-neft ÜDM-nin vergi yükünün azaldılmasına imkan yaratmışdır.
Büdcə xərclərinin iqtisadi artımda, əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsində mühüm rol oynadığı halda, ölkədə inflayasiynın səviyyəsinə məhdud təsir göstərdiyi aşkar edilmişdir. Ölkədə inflyasiya səviyyəsinə xarici amillərin, ölkə daxilində qiymətləri dövlət tərəfindən tənzimlənən

məhsul və xidmətlərin qiymət artımı və əmək haqqının artımının daha böyük təsir göstərdiyi müəyyən edilmişdir. Xüsusilə, əmək haqqqının artımı dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri olduğu şəraitdə digər iqtisadi parametrlərin (əsasən, faiz dərəcəsi) sabit qalması, əmək məhsuldarlığının artmaması halında inflyasiya təziqlərini artırır.

Son illərdə ölkədə pul kütləsinin həcminin artımı Mərkəzi Bank tərəfindən valyuta məzənnəsinin (əsasən ABŞ dollarının) sabitliyinin təmin edilməsi ilə əlaqədar olmuşdur. Belə ki, neft gəlirlrinin xərclənimesi valyuta bazarına iri həcmli valyutanın daxil olmasını şərtləndirmişdir. Nəticədə, ölkədə pul kütləsinin həcminin artımı ÜDM-in, o cümlədən qeyri-neft ÜDM-in real artımından əhəmiyyətli dərəcədə böyük olmuşdur. Belə ki, 2000-2011-ci illərdə M2 aqreqatının artımı ÜDM-in nominal artımını 3,1 dəfə, qeyri-neft ÜDM-nin nominal artımını isə 4,7 dəfə, dövriyyədə olan nağd pul kütləsinin artımı isə müvafiq göstəriciləri uyğun olaraq 2,5 dəfə və 3,7 dəfə üstələmişdir. Belə yüksək artım inflyasiya səviyyəsinə məhdud təsir göstərmişdir. Bu hal manatdan yığım vasitəsi kimi istifadə edilməsi ilə əlaqədardır. Ölkədə maliyyə bazarlarının zəif inkişafı, manatın denominasiyası və manatın məzənnəsinin möhkəmlənməsi gözləntiləri manatdan yığım vasitəsi kimi istifadə edilməsini artırmış və nəticədə ona olan tələbi artırmışdır.

Ölkədə likvidliyin artdığı bir şəraitdə fazi dərəcələrinin səviyyəsi azalmamışdır. Ümumiyyətlə, faiz dərəcəsinin zaman strukturu, manatla verilən kreditlərlə xarici valyutada verilən kreditlər arasında, yerli faiz dərəcəsi ilə xarici faiz dərəcələri arasında asıllıq müəyyən edilməmişdir. Belə hal maliyyə bazarının qeyri-təkmillik səviyyəsinin yüksək olmasını göstərir. Faiz dərəcəsi iqtisadi artımın əsas determinatlarından biridir və onun yüksək səviyyəsi ölkədə iqtisadi fəallğıa mənfi təsir göstərir. Həmçinin, əmək haqqının artımı şəraitində faiz dərəcəsinin nisbətən sabit qalması inflyasiya təzyiqlərini də artırır.

Azərbaycanda fiskal siyasətdə dövlət borcunun maliyyələşdirilməsinin monetar kanalları vasitəsilə inflyasiyaya təsiri əhəmiyyətli olmamışdır. Ölkədə dövlət büdcəsinin kəsrinin nisbətən kiçik olması, bu kəsrin inflyasiya yaratmayan mənbələr hesabına maliyyəlşdirilməsi imkanlarının mövcudluğu və Dövlət Neft Fondunun ehtiyatlarının həcmi bu məsələnin aktuallığnı azaldır. Bununla belə, Mərkəzi Bankın valyuta bazarında alış yönümlü fəaliyyəti dövriyyədə manatla pul kütləsinin artımına səbəb olur. Bununla belə, bu pul kütləsinin arxasında məhsul və ya valyuta dayandığından və onun əhəmiyyətli hissəsi yığım kimi istifadə edildiyindən dövriyyədəki pul kütləsinini inflayasiya təziqi məhdud olmuşdur. Buna həmçinin idxal qiymətlərinin məhdudlaşdırıcı təsiri və bir sıra məhsulların qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi də əhəmiyyətli təsir göstərir.

Hökumətlə Mərkəzi Bankın fəaliyyətlərini əlaqələndirməli olduğu əsas sahə iqtisadi artım və inflaysiya arasındakı seçimlə əlaqədardır. Makroiqtisadi siyasət iqtisadi artım tempinin aşağı olmasından yaranan itkilərlə inflyasiyanın artımından yaranan itkilərin minimumlaşdırılmasına istiqamətlənməlidir. Bu baxımdan, ölkədə faiz dərəcəsinin səviyyəsi iqtisadi artım və inflyasiyanın səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Fikrimizcə, həm Mərkəzi Bank, həm də fiskal orqanlar tərəfindən faiz dərəcəsinin aşağı salınması imkanları mövcuddur və tədqiqat işində bu istiqamətlər müəyyən edilmişdir.

Əldə edilmiş nəticələr Azərbaycan şərtləri baxımından yenidir. *İşin əsas elmi və təcrübi əhəmiyyəti* ondan ibarətdir ki, tədqiqatın əsas müddəalarından və nəticələrindən, işdə irəli sürülən təklif və tövsiyələrdən istifadə edilməsi ölkə iqtisadiyyatında baş verən qanunauyğunluqların dərk edilməsi və milli iqtisadiyyatın makroiqtisadi baxımdan tənzimlənməsinə dair biliklərin dərinləşdirilməsinə, dövlətin makroiqtisadi siyasətinin, fiskal siyasətlə makroinqtisadi siyasətin əlaqələndirilməsinin mexanizminin təkmilləşdirilməsinə, iqtisadi artımın dayanıqlılığının artğırılması üçün siyasət tədbirləri hazırlanmasına kömək edəcəkdir.

Tədqiqatın nəticələrindən aşağıdakı istiqamətlərdə istifadə edilə bilər:

-Ölkədə iqtisadi artımın dayanıqlılığının artırılması istiqamətində tədbirlərin hazırlanmasında;

- Milli iqtisadi sistemdə sürətlə artan maliyyə axınlarının idarə olunmasının səmərəliliyinin

yüksəldilməsi və maliyyə resurslarından istifadənin inteqral nəticəliliyinin artırılması, o cümlədən belə resursların daxili iqtisadi inkişafa müsbət təsirliliyini saxlamaqla, onların ölkənin dünya təsərrüfat sistemində mövqelərinin gücləndirilməsinə məqsədyönlü istiqamətləndirilməsi;

- Hökumətin büdcə vəsaitləri hesabına iqtisadi artımın stimullaşdırılması istiqamətində siyasət tədbirləri hazırlanmasında;
- Mərkəzi Bankın sosial rifahın artırılması məqsədindən çıxış edərək iqtisadi artımın stimullaşdırılması üçün faiz siyasətini təkmilləşdirilməsində;
- Fiskal siyasətlə monetar siyasətin əlaqələndirilməsi mexanizminin təkmilləşdirilməsi sahəsində tədbirlərin hazırlanmasında;
- dərslik və metodik vəsaitləri hazırlanmasında və tədris prosesində.

4 Layihə üzrə elmi nəşrlər (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

Layihə rəhbəri prof. R.Həsənov "Davamlı inkişaf və maliyyə bazarının yönəldiciləri:uzlaşdırma problemləri mövzusunda məqaləsi (E.Qasımzadə ilə birgə) "Azərbaycanda faizsiz maliyyə bazarının inkişaf perspektivləri"Beynəlxalq simpoziumunun materiallarında (Bakı sentyabr 2012) səh 88-91;

"Makroiqtisadi siyasətin əsas makroiqtisadi parametrlərə təsirinin qiymətləndirilməsi " məqaləsi Azərbaycan Dövlət İqtisad Universitetində elmi-praktiki konfransı materiallarında (Bakı aprel 2012 səh 5-7;

Layihə icraçısı i.e.n. B.S.Əhmədovun "Azərbaycanda milli qənaətin formalaşması xüsusiyyətləri və onun həcminə təsir edən amillərin qiymətləndirilməsi" mövzusunda məqaləsi Azərbaycan Dövlət İqtisad Universitetində elmi-praktiki konfransı materiallarında (Bakı sentyabr 2012 səh 10-12) nəşr edilmidir.

Layihə icraçısı i.e.n. B.S.Əhmədovun . The public investments in Azerbaijan: theoretical and pratical aspects mövzusunda məqaləsi / The journal of Economic Sciences: theory and practice/, 2012, №1,. pp.116-143 nəşr edilmişdir.

Prof R.T.Həsənovun"Marjinal faydalılıq və humanitar hədəflər: uzlaşdırmanın çətinlikləri" mövzusundə məruzəsi II Beynəlxalq Bakı Humanitar Forumunun materiallarında (Bakı oktyabr 2012);

prof. R.T.Həsənov və layihə icraçısı i.e.n. B.S.Əhmədovun «Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi böhranlardan qorunma imkanlarının qiymətləndirilməsi» mövzusunda birgə məruzəsi isə Avrasiya Sosial Elmlər Forumunun materiallarında (Bakı oktyabr 2012) çapa qəbul edilmişdir.

5 İxtira və patentlər, səmərələşdirici təkliflər

*(burada doldurmalı)*

6 Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir)

Layihə rəhbəri i.e.d. prof. R.T.Həsənov Ankara şəhərində,
Layihə icraçısı i.e.n. B.S.Əhmədov Moskva şəhərində, ezamiyyətdə olmuşdur

7 Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa)

*(burada doldurmalı)*

**8** Layihə üzrə digər tədbirlərdə iştirak

*(burada doldurmalı)*

**9** Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq)

Layihə rəhbəri prof. R.Həsənov

- II Beynəlxalq Bakı Humanitar Forumunda "Marjinal faydalılıq və humanitar hədəflər: uzlaşdırmanın çətinlikləri"(Bakı oktyabr 2012);
- "Azərbaycanda faizsiz maliyyə bazarının inkişaf perspektivləri" beynəlxalq simpoziumda "Davamlı inkişaf və maliyyə bazarının yönəldiciləri:uzlaşdırma problemləri" (Bakı sentyabr 2012);
- Azərbaycan Dövlət İqtisad Universitetində elmi-praktiki konfransda " Makroiqtisadi siyasətin əsas makroiqtisadi parametrlərə təsirinin qiymətləndirilməsi " (Bakı aprel 2012) mövzusunda elmi məruzələrlə çıxış etmişdir.

Layihə icraçısı i.e.n. B.S.Əhmədov

- Azərbaycan Dövlət İqtisad Universitetində elmi-praktiki konfransda "Azərbaycanda milli qənaətin formalaşması xüsusiyyətləri və onun həcminə təsir edən amillərin qiymətləndirilməsi" mövzusunda elmi məruzə ilə çıxış etmişdir.
- prof. R.T.Həsənov və i.e.n. B.S.Əhmədov birgə «Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi böhranlardan qorunma imkanlarının qiymətləndirilməsi» mövzusunda "Dünya İqtisadiyyatının İnkişaf Paradiqması: Bazar və Sonrası" mövzusuna həsr olunmuş Azərbaycan Dövlət İqtisad Universiteti, Türkiyə Respublikası Hacettepe Universiteti, Qazaxıstan Respublikası Ahmet Yesevi Universiteti və Qırğızıstan Respublikası Manas Universitetinin birgə həyata keçirdiyi Avrasiya Sosial Elmlər Forumunda məruzə ilə çıxış etmişlər.

**10** Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları

EİF tərəfindən layihə çərçivəsində icracılara istifadə üçün 3 noutbuk,2 surətçıxaran 4 katric, 3 mouse,3 çanta və 7 USB yaddaş qurğusu verilmişdir.

**11** Yerli həmkarlarla əlaqələr

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi "İqtisadi siyasət" şöbəsinin müdiri i.e.d. prof. Ə.C.Muradov, Dövlət statistika Komitəsinin "Milli hesablar statistikası" şöbəsinin müdiri N.Suleymanov, Mərkəzi Bankın «Tədqiqatlar» departamentinin müdiri V.Əhmədov, müdir müavini i.e.n. Ş.Adıgözəlov, Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzinin müdiri E.Hüseynov, «Elmi-tədqiqat» şöbəsinin müdiri X.İbrahimova ,AR Auditorlar palatasının sədri prof. V. Novruzov və ADİU –nun bir sıra professorları ilə la mövzu ətrafında mütamadi müzakirələr aparılmışdır.

**12** Xarici həmkarlarla əlaqələr

Rusiya Ali İqtisadiyyat Elmi-Tədqiqat Universitetinin əməkdaşları, prof F.T. Ələsgərov və i.e.n. dos. S.E.Pekarskiy, Türkiye Cumhuriyyeti Hacəttəpə universitesi iqtisadi və idari bilimler fakultesi dekanı prof. Ahmet Burcin və Maliyye bölümünün başkanı prof. N Bağdadioğlu, Pakistan Elm və Texnologiyalar nazirliyi Elm Fondunun tədqiqatlar üzrə direktoru dr. Ata-ul-Mohsin,TC Maliyyə nazirliyinin əməkdaşları yeminli mali muşavirləriG.Taşdemir və D.Alantar, "Ümumrusiya həyat səviyyəsi mərkəzi" ETİ direktoru, prof. V.N. Bobkov, Qırğızıstan MEA akademiki T.K.Koyçiyev və s. ilə mövzu ətrafında ətraflı müzakirələr aparılmışdır.

| | |
|---|---|
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)* |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Həsənova Günel Cahangir qızı

______________
*(imza)*
"__" ________ 201_-ci il

Dəşdəmirova X. / [signature] /

**Baş məsləhətçi**
Babayeva Ədilə Əli qızı

[signature]
______________
*(imza)*
"__" ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Həsənov Rasim Tapdıq oğlu

[signature]
______________
*(imza)*
"15" __01__ 2013-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycanda dayanıqlı iqtisadi inkişafın təmin edilməsində fiskal və monetar siyasətin əlaqələndirilməsi mexanizminin qiymətləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Həsənov Rasim Tapdıq oğlu**

Qrantın məbləği: **40 000 manat**

Layihənin nömrəsi: **EİF-2011-1(3)- 82/78-M-53**

Müqavilənin imzalanma tarixi: **16 dekabr 2011-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **1 yanvar 2012-ci il – 1 yanvar 2013-cü il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | 1.Son illərdə iqtisadi artımda əsasən neft və qaz sektorunda baş verən artım və neft gəlirlərinin xərclənməsi əsas rol oynamışdır. Ümumiyyətlə, 2006-2010-cu illərdə ÜDM-in yaranmasında xalis mənfəətin payı 70 faizdən çox olmuşdur ki, bu da əsasən neft-qaz hasilatı sahəsində yaranan renta ilə əlaqədar olmuşdur. Əmək haqqının payı isə 20 faizdən az olmuşdur ki, belə hal iqtisadi artımın dayanıqlılığını məhdudlaşdırır.<br><br>2. Büdcə gəlirlərinin əsas hissəsi neft gəlirləri hesabına formalaşmışdır. Belə hal qeyri-neft ÜDM-nin vergi yükünün azaldılmasına imkan yaratmışdır. Bundan başqa, qeyri-neft vergi gəlilərinin bir hissəsi də büdcənin neft gəlirlrinin xərclənməsi hesabına formalaşmışdır. |

Həmçinin qeyri-neft ÜDM-nin artımında büdcənin neft gəlirləri əhəmiyyətli rol oynamışdır. Belə ki, büdcədən təhsil, səhiyyə, dövlət idarəetməsi xərclərinin artımı qeyri-neft ÜDM-ini birbaşa artırır.

3. Son illərdə büdcə xərclərinin əhəmiyyətli hissəsini əsaslı xərclər təşkil etmişdir. Bu xərclər əsasən infrastruktur layihələrin inkişafına yönəldilmişdir. Bununla belə milli qənaətin əsas hissəsinin dövlətin sərəncamında olması özəl bölmənin investisiya qoyluşlarının maliyyələşdirilməsində dövlətin iştirakını tələb edir. Bundan başqa, bir sıra infrastruktur sahələrin irkişafı onların saxlanması xərclərinin də artmasına səbəb olur. Buna görə də, dövlət büdcəsindən özəl bölmənin inkişafına, xüsusilə emal sənayesi və kənd təsərrüfatı sahələrində investisiya layihələrinin maliyyəlşdirilməsinə yönəldilən vəsaitlərin həcminin daha iri ölçülərlə artırılması məqsədəuyğundur. Bu istiqamətdə tədbirlər qeyri-neft ÜDM-nin və dövlət büdcəsinin qefri-neft gəlirlrinin artımına müsbət təsir göstərər.

4. Büdcə xərclərinin iqtisadi artımda, əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsində mühüm rol oynadığı halda, ölkədə inflayasiyanın səviyyəsinə məhdud təsiri göstərdiyi aşkar edilmişdir. Ölkədə inflyasiya səviyyəsinə xarici amillərin, ölkə daxilində qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmətlərin qiymət artımı və əmək haqqının artımının daha böyük təsir göstərdiyi müəyyən edilmişdir. Xüsusilə, əmək haqqının artımı dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri olduğu şəraitdə digər ekzogen iqtisadi parametrlərin (əsasən, faiz dərəcəsi) sabit qalması və ya ən azı konservativliyi, əmək məhsuldarlığının artmaması halında inflyasiya təziqlərini artırır.

5. Son illərdə ölkədə pul kütləsinin həcminin artımı Mərkəzi Bank tərəfindən valyuta məzənnəsinin (əsasən ABŞ dollarının) sabitliyinin təmin edilməsi edilməsi ilə əlaqədar olmuşdur. Belə ki, neft gəlirlrinin xərclənimesi valyuta bazarına iri həcmli valyutanın daxil olmasını şərtləndirmişdir. Nəticədə, ölkədə pul kütləsinin həcminin artımı ÜDM-in, o cümlədən qeyri-neft ÜDM-in real artımından əhəmiyyətli dərəcədə böyük olmuşdur. Belə ki, 2000-2011-ci illərdə M2 aqreqatının artımı ÜDM-in nominal artımını 3,1 dəfə, qeyri-neft ÜDM-nin nominal artımını isə 4,7 dəfə, dövriyyədə olan nağd pul kütləsinin artımı isə müvafiq göstəriciləri uyğun olaraq 2,5 dəfə və 3,7 dəfə üstələmişdir. Belə yüksək artım inflyasiya səviyyəsinə məhdud təsir göstərmişdir. Bu hal manatdan yığım vasitəsi kimi istifadə edilməsi ilə əlaqədardır. Ölkədə maliyyə bazarlarının zəif inkişafı, manatın denominasiyası və manatın məzənnəsinin möhkəmlənməsi gözləntiləri manata yığım vasitəsi kimi istifadə edilməsini artırmış və nəticədə ona olan tələbi artırmışdır. Əsasən nağd pul kütləsindən yığım vasitəsi kimi istifadə edilməsi pulun dövriyyə sürətini azaltmışdır. Həmçinin dövriyyədə nağd pul kütləsinin payının yükəsk olması pul bazasının multiplikativ təsirini məhdudlaşdırımışdır ki, bu da inflyasiya təziqlərinin azaldılmasına səbəb olmuşdur.

6. Kiçik açıq iqtisadiyyatda vayluta məzənnəsinin iqtisadi subyektlərinin davranışına təsiri əhəmiyyətli olur. Mərkəzi Bank bunu nəzərə alaraq nominal effektiv məzənnəni aralıq hədəf kimi müəyyən etmişdir. Bununla belə, ölkədə manatın bütün tərəfdaş ölkələrin valyutalarında məzənnəsinin formalaşdığı bazar yoxudur. 2011-ci ildə valyuta bazarının 88,1 faizi ABŞ dollarının payına, 10,6 faizi isə AVRO-nun payına düşmüşdür. Belə şəraitdə qismən Böyük Britaniya funt sterlinqi və Rusiya rublu istisna olmaqla, Azərbaycanda digər ölkələrin valyutalarının bazarı mövcud deyildir. Nəticədə, Mərkəzi Bank qeyd edilən valyutalar istisna olmaqla digər valyutaların məzənnəsini əsasən ABŞ dolları əsasında çarpaz məzənnə əsasında müəyyə etmək məcburiyyətində qalır. Bu baxımdan, Mərkəzi Bank əsasən milli valyutanın ABŞ dolları ilə məzənnəsini tənzimləyir. Son illərdə Mərkəzi Bank tərəifndən milli valyutanın ABŞ dollarına nəzərən məzənnəsinin dəyişkənliyi məhdudlaşdırılmış və sürətlə möhkəmlənməsinin qarşısı alınmışdır. Belə şəraitdə, tərəfdaş ölkələrdə milli valyutanın ABŞ dollarına nəzərən ucuzlaşması manatın nominal effektiv məzənnənin artmasına səbəb olmuşdur ki, bu da xarici tərəfdaş ölkələrdə baş verən inflaysiyanın daxili bazara təsirini məhdudlaşdırmışdır. Belə ki, araşdırmalar zamanı nominal effektiv məzənnənin dəyişməsi ilə ölkədə istehlak qiymətləri indeksi arasında əks əlaqə mövcud olduğu müəyyən edilmişdir.

7. Ölkədə likvidliyin artdığı bir şəraitdə faiz dərəcələrinin səviyyəsi azalmamışdır. Ümumiyyətlə, faiz dərəcəsinin zaman strukturu, manatla verilən kreditlərlə xarici valyutada verilən kreditlər arasında, yerli faiz dərəcəsi ilə xarici faiz dərəcələri arasında asıllıq müəyyən edilməmişdir. Belə hal maliyyə bazarının qeyri-təkmillik səviyyəsinin yüksək olmasını göstərir. Faiz dərəcəsi iqtisadi artımın əsas determinatlarından biridir və onun səviyyəsi ölkədə iqtisadi fəallığa mənfi təsir göstərir. Həmçinin, əmək haqqının artımı şəraitində faiz dərəcəsinin nisbətən sabit qalması inflyasiya təzyiqlərini də artırır.

8. Azərbaycanda fiskal siyasətdə dövlət borcunun maliyyələşdirilməsinin monetar kanalları vasitəsilə inflyasiyaya təsiri əhəmiyyətli olmamışdır. Ölkədə dövlət büdcəsinin kəsrinin nisbətən kiçik olması, bu kəsrin inflyasiya yaratmayan mənbələr hesabına maliyyələşdirilməsi imkanlarının mövcudluğu və Dövlət Neft Fondunun ehtiyatlarının həcmi bu məsələnin aktuallığnı azaldır. Bununla belə, Mərkəzi Bankın valyuta bazarında alış yönümlü fəaliyyəti dövriyyədə manatla pul kütləsinin artımına səbəb olur. Bununla belə, bu pul kütləsinin arxasında məhsul və ya valyuta dayandığından və onun əhəmiyyətli hissəsi yığım kimi istifadə edildiyindən dövriyyədəki pul kütləsinini inflayasiya təziqi məhdud olmuşdur. Buna həmçinin idxal qiymətlərinin məhdudlaşdırıcı təsiri və bir sıra məhsulların qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi də əhəmiyyətli təsir göstərir.

9. Hökumətlə Mərkəzi Bankın fəaliyyətlərini əlaqələndirməli olduğu əsas sahə iqtisadi artım və inflaysiya arasındakı seçimlə əlaqədardır. Makroiqtisadi siyasət iqtisadi artım tempinin aşağı olmasından yaranan itkilərlə inflyasiyanın artımından yaranan itkilərin minimumlaşdırılmasına istiqamətlənməlidir. Bu baxımdan, ölkədə faiz dərəcəsinin səviyyəsi iqtisadi artım və inflyasiyanın səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Fikrimizcə, həm Mərkəzi Bank, həm də fiskal orqanlar tərəfindən faiz dərəcəsinin aşağı salınması imkanları mövcuddur və tədqiqat işində bu istiqamətlər müəyyən edilmişdir.

2 Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində)

Layihə üzrə aparılmış tədqiqatlar aşağıdakı kimi elmi əsərlərdə öz əksinin tapmışdır:

Layihə rəhbəri prof. R.Həsənov ”Davamlı inkişaf və maliyyə bazarının yönəldiciləri:uzlaşdırma problemləri mövzusunda məqaləsi (E.Qasımzadə ilə birgə) ”Azərbaycanda faizsiz maliyyə bazarının inkişaf perspektivləri”Beynəlxalq simpoziumunun materiallarında (Bakı sentyabr 2012) səh 88-91;

“Makroiqtisadi siyasətin əsas makroiqtisadi parametrlərə təsirinin qiymətləndirilməsi “ məqaləsi Azərbaycan Dövlət İqtisad Universitetində elmi-praktiki konfransı materiallarında (Bakı aprel 2012 səh 5-7;

Layihə icraçısı i.e.n. B.S.Əhmədovun “Azərbaycanda milli qənaətin formalaşması xüsusiyyətləri və onun həcminə təsir edən amillərin qiymətləndirilməsi” mövzusunda məqaləsi Azərbaycan Dövlət İqtisad Universitetində elmi-praktiki konfransı materiallarında (Bakı sentyabr 2012 səh 10-12) nəşr edilmidir.

Layihə icraçısı i.e.n. B.S.Əhmədovun . The public investments in Azerbaijan: theoretical and pratical aspects mövzusunda məqaləsi / The journal of Economic Sciences: theory and

| | |
|---|---|
| | practice/, 2012, №1,. pp.116-143 nəşr edilmişdir.<br><br>Prof R.T.Həsənovun "Marjinal faydalılıq və humanitar hədəflər: uzlaşdırmanın çətinlikləri" mövzusundə məruzəsi II Beynəlxalq Bakı Humanitar Forumunun materiallarında (Bakı oktyabr 2012);<br><br>prof. R.T.Həsənov və layihə icraçısı i.e.n. B.S.Əhmədovun «Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi böhranlardan qorunma imkanlarının qiymətləndirilməsi» mövzusunda birgə məruzəsi isə Avrasiya Sosial Elmlər Forumunun materiallarında (Bakı oktyabr 2012) çapa qəbul edilmişdir. |

**2. Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | Tədqiqat işinin nəticələrindən tətbiqi və axtarış-innovasiya yönlü elmi- tədqiqat layihə və proqramlarında, ölkədə maliyyə axınlarının idarə edilməsinin səmərəliliyi və verimliyinin artırılması, o cümlədən dövlətin maliyyə, büdcə-vergi siyasətinin formalaşması mexanizmlərində, müvafiq dövlət proqramlarında istifadə edilə bilər. Tədqiqatın, sferasını genişləndirilməklə davam etdirilməsi, o cümlədən milli iqtisadiyyatın struktur, ərazi və funksional inkişafının fiskal-monetar amillərlə əlaqələndirilməsi, tədqiqat nəticələrinin çağdaş Azərbaycanın iqtisadi inkişaf modelinin xüsusiyyətlərini əks etdirən fundamental monoqrafiya və dərslik kimi nəşr edilməsi mümkündür. |

**SİFARİŞÇİ:**

**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**

Həsənova Günel Cahangir qızı

_______________

*(imza)*

" __" _______ 201_-ci il

**Baş məsləhətçi** Dadaşmirzəyeva X.: (signature)

Babayeva Ədilə Əli qızı

_______________

*(imza)*

" __" _______ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**

Həsənov Rasim Tapdıq oğlu

_______________

*(imza)*

" 15" 01 2013-ci il

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2011-ci ilin 1-ci müsabiqəsinin (EİF-2011-1(3)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Azərbaycanda dayanıqlı iqtisadi inkişafın təmin edilməsində fiskal və monetar siyasətin əlaqələndirilməsi mexanizminin qiymətləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Həsənov Rasim Tapdıq oğlu**
Qrantın məbləği: **40 000 manat**
Layihənin nömrəsi: **EİF-2011-1(3)- 82/78-M-53**
Müqavilənin imzalanma tarixi: **16 dekabr 2011-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **1 yanvar 2012-ci il – 1 yanvar 2013-cü il**

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | ***Monoqrafiyalar*** | | | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 1 | | |
| | ***həmçinin xarici nəşrlərdə*** | | | |
| 3. | ***Konfrans materiallarında məqalələr*** | 1 | 2 | |
| | O cümlədən, beynəlxalq konfras materiallarında | 1 | 2 | |
| 4. | Məruzələrin tezisləri | 2 | | |
| | ***həmçinin, beynəlxalq tədbirlərin*** | | | |

| | | | | |
|---|---|---|---|---|
| | ***toplusunda*** | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | 2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktiki konfrans | ölkədaxili | plenar | 2 |
| 2. | Avrasiya Sosial Elmlər Forumu | beynəlxalq | plenar | 1 |
| 3. | II Beynəlxalq Bakı Humanitar Forum | beynəlxalq | Dəvətli | 1 |
| 4 | Azərbaycanda faizsiz maliyyə bazarının inkişaf perspektivləri" beynəlxalq simpozium | beynəlxalq | Dəvətli | 1 |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Həsənova Günel Cahangir qızı

_________________
*(imza)*
"__" ________ 201_-ci il

Daşdəmirova X.;

**Baş məsləhətçi**
Babayeva Ədilə Əli qızı

_________________
*(imza)*
"__" ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Həsənov Rasim Tapdıq oğlu

_________________
*(imza)*
"15" 01 2013-ci il